**Roald Dahlın uşaqlar üçün yazdığı kitablar:**

- BMA
- Oğlan: Uşaqlıq nağılı
- Çarli və şokolad fabriki
- Çarli və böyük şüşə lift
- Dünya çempionu Denni
- Çirkli heyvanlar
- Nəhəng timsah
- Esio qaçışı
- Fantastik Mister Foks
- Corcun ecazkar dərmanı
- Zürafə, Pelli və Mən
- Solo gedən
- Ceyms və nəhəng şaftalı
- Sehirli barmaq
- Matilda
- Minpins
- İtmiş qızıl bilet və başqa gözəl sirlər
- Roald Dahlın üsyan edən qafiyələri
- Ağıldankəmlər
- Niblesvike keşişi
- Küpəgirənlər
- Henri Şuqerin gözəl hekayəti

# ROALD DAHL

# Fantastik MİSTER FOKS

Tərcüməçi:
Ramiz Abbaslı

qanun nəşriyyatı

# ROALD DAHL

# Fantastic MR. FOX

Yaxınlıqdakı üç fermerin təsərrüfatında hər gün oğurluq olur. Fermerlər oğrunun kimliyini bilirdilər – bu, Fantastik Mister Foksun işidir. Fermerlərin hər biri təkbaşına nə qədər əlləşsə də, oğrunu tuta bilmir. Belə olduqda kök Boggis, balacaboy Bunse və arıq Bin öz qüvvələrini birləşdirirlər. Nəticədə Mister Foks ailəsiylə birlikdə mühasirəyə alınır. Amma fermerlər unudurlar ki, mühasirəyə saldıqları hansısa adi bir tülkü deyil, Fantastik Mister Foksdur. Mühasirəyə düşmüş tülküləri bu fəlakətdən yalnız hansısa qeyri-adi bir plan xilas edə bilər.

**Roald Dahl FANTASTIC MR.FOX**
**Roald Dahl FANTASTİK MİSTER FOKS**
Bakı, Qanun Nəşriyyatı, 2023, 104 səh.

Janr: fiction/roman/uşaq ədəbiyyatı
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 13.06.23

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Ramiz Abbaslı
Redaktor: Şərafət Haqverdiyeva
Korrektorlar: Şəhla Yarıbəyli, Aytən Şamil
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Pərvanə Şahin
Qapaq dizaynı: Rafael Qasım
Rəssam: Quentin Blake

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-712-4

© Qanun Nəşriyyatı, 2023
FANTASTIC MR FOX © The Roald Dahl Story Company Limited, 1970

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur.Kitabın təkrar və hissə-hissə
nəşri «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında
Azərbaycan Respublikasının Qanunu»na ziddir.

# 1
# ÜÇ FERMER

Vadidə üç fermer yaşayırdı. Ferma sahibləri fərasətli adamlar idilər. Onlar varlıydılar, amma xa-





siyyətləri murdar idi. Yəqin ki, heç kim ömründə belə murdar adamlara rast gəlməyib. Onlardan birinin adı Fermer Boqqis, digərinin Fermer Bans, üçüncüsünün isə Fermer Bin idi.

Boqqisin toyuq ferması var idi. Öz fermasında o, minlərlə toyuq-cücə saxlayırdı. Boqqis çox kök idi, çünki hər gün səhər yeməyi vaxtı suda bişirilərək kartof püresinə hopdurulmuş üç çolpa yeyirdi. Onun na-

har və şam yeməyi də səhər yeməyindən fərqlənmirdi: suda bişirilərək kartof püresinə hopdurulmuş üç çolpa.

Bansın qaz və ördək ferması var idi. Öz fermasında o, minlərlə qaz və ördək saxlayırdı. Bu adam yekəqarın liliputa oxşayırdı. Boyu o qədər balaca idi ki, ən dayaz üzgüçülük hovuzunda belə çənəsi suyun altında qalırdı. O, əsasən kömbə və qazın qaraciyəri ilə qidalanırdı; qazın qaraciyərini əzib xəşilə oxşayan





iyrənc bir şey düzəldir, sonra onu kömbənin içinə doldurub yeyirdi. Bu cür qidalanırdı deyə mədəsi həmişə ağrıyırdı, xasiyyəti də murdar idi.

Fermer Bin isə öz təsərrüfatında hind quşu saxlayırdı, onun böyük bir bağı da var idi; fermada minlərlə hind quşu bəslənirdi, bağda isə çoxlu alma ağacı əkilmişdi. Bin yemək yemirdi, acanda ancaq öz bağındakı ağacların meyvəsindən çəkilmiş alma şirəsi



içirdi. Ona görə də çox arıq idi: bir dəri, bir sümük. Amma o biri iki fermerdən ağıllı idi.

Balaca uşaqlar fermerləri küçədə görəndə səs-səsə verib xorla oxuyurdular:

Boqqis, Bans, bir də Bin.
Biri kök, biri gödək, o biri arıq.
Necə də fərqlidirlər! Fəqət fərq etməz.
Bir bezin qırağıdırlar: üçü də xəsis.
Bədəməl fırıldaqçılar.





# 2
# MİSTER FOKS

Vadinin yuxarısındakı təpənin üstü meşə idi. Meşədə böyük bir ağac var idi. Ağacın altında isə bir deşik var idi: bu, tülkü yuvasının girişi idi. O yuvada Mister Foks, arvadı Ana Tülkü və dörd balası yaşayırdı.

